**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

__________________

08.04.2024-cü il

## Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Texnologiya və innovasiyalar” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət (son hesabat üzrə) | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal İnnovasiya İndeksi*** | | | | | | | |
| 1. | **3.1.1 İKT-nin əlçatanlığı** | 71-ci yer, 81 bal | İKT-yə əlçatanlıq aşağıdakı dörd göstəricini (hər biri 25%) birgə əks etdirən indeksdir:<br>(1) mobil şəbəkə ilə əhatə olunmuş ərazidə yaşayan əhalinin ölkə əhalisində xüsusi çəkisi (ən azı 3G);<br>(2) əhalinin hər 100 nəfərinə düşən mobil telefon abunəçilərinin sayı;<br>(3) hər internet istifadəçisinə düşən beynəlxalq internet kanalının tutumu (bit/s);<br>(4) internetə çıxışı olan ev təsərrüfatlarının bütün ev təsərrüfatlarının sayında xüsusi çəkisi. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi** | | | |
| | | | | 1. İşğaldan azad edilmiş ərazilərdə 3G və 4G şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi | 01.12.2024 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi | Əlyar Təmirov, Elvin Məmmədov |
| | | | | 2. Ölkədə rəqəmsal mühitin tam formalaşması istiqamətində zəruri işlərin həyata keçirilməsi | | | |
| | | | | 3. Mövcud mis xətlər üzrə ADSL abunəçilərinin GPON texnologiyasına miqrasiyasının sürətləndirilməsi və bütün ev təsərrüfatlarının yüksəksürətli internet şəbəkəsi ilə təmin edilməsi | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **3.1.2 İKT-dən istifadə** | 81-ci yer, 65,8 bal | İKT-dən istifadə aşağıdakı dörd göstəricini (hər biri 25%) birgə əks etdirən indeksdir: (1) internetdən istifadə edən əhalinin bütün əhali sayında xüsusi çəkisi; (2) əhalinin hər 100 nəfərinə düşən sabit (simli) genişzolaqlı internet abunəçilərinin sayı; (3) aktiv mobil genişzolaqlı internet abunəçilərinin sayı; (4) mobil genişzolaqlı internet trafiki (giqabayt/abunəçilərin sayı). | 4. “Onlayn Azərbaycan” layihəsi çərçivəsində internet xidmətləri ilə əhatə olunmamış və digər texnologiyalarla internetə qoşulan ərazilərin GPON texnologiyası əsasında yüksəksürətli internet xidmətləri ilə təmin edilməsi | 01.12.2024 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi | Əlyar Təmirov, Elvin Məmmədov |
| | | | | 5. İndikatorlara dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.06.2024 | Dövlət Statistika Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Gülbala Quliyev, Anar Eyyubov |
| 2. | **3.1.3 Onlayn dövlət xidmətləri** | 81-ci yer, 57,1 bal | “E-hökumətin İnkişafı İndeksi”nin “Onlayn xidmətlər indeksi” komponenti hökumətlər tərəfindən dövlət xidmətlərinin milli səviyyədə əhaliyə təqdim edilməsində İKT-nin istifadəsini ölçən mürəkkəb indikatordur. | 1. Vahid elektron hökumət portalına Elektron Hökumətin İnkişafı İndeksində əsas götürülən xidmətlərin əlavə edilməsi | 01.08.2024 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Elmir Ağasoy, Tamerlan Hacıyev |
| | | | | 2. Vahid e-iştirakçılıq portalının yaradılması və iştirakçılıq modullarının portalda aktivləşdirilməsi | | | |
| | | | | 3. Onlayn dövlət xidmətlərindən istifadə sahəsində alternativ üsul kimi mobil texnologiyalar vasitəsilə məsafədən imzalama funksiyasının tətbiq edilməsi | | | |
| 3. | **3.1.4 Elektron iştirak (onlayn məlumat mübadiləsi)** | 91-ci yer, 37,2 bal | E-İştirak İndeksi (E-Participation Index- EPI) Birləşmiş Millətlər Təşkilatının “Elektron Hökumət Sorğusu”na əlavə indeks kimi daxil edilmişdir. O, vətəndaşlara məlumatların təmin edilməsində (e-informasiya mübadiləsi), maraqlı tərəflərlə qarşılıqlı əlaqədə (e-məsləhətləşmə) və qərarqəbuletmə proseslərində (e-qərarqəbuletmə) dövlətin onlayn xidmətlərdən istifadəsinə diqqət yetirməklə sorğunun əhatə dairəsini genişləndirir. | 1. Vahid e-iştirakçılıq portalının yaradılması çərçivəsində vətəndaşlarla birbaşa əlaqə kanallarının təkmilləşdirilməsi (dövlət xidmətlərinin göstərilməsində vətəndaşlar tərəfindən verilən rəylərin toplanılması, həmçinin elektron qərarqəbuletmə prosesinin təmin edilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi) | | | Elmir Ağasoy |
| | | | | 2. “Rəqəmsal İcra Hakimiyyəti” portalının “e-iştirakçılıq” modulunun təkmilləşdirilməsi (portalın “e-iştirakçılıq” modulunun istifadəçi interfeysinin istifadə rahatlığının təmin edilməsi və dizaynının optimallaşdırılması) | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 3. Dövlət proqramları və strategiyalarının elektron idarəedilməsi üzrə vətəndaşlarla e-informasiya mübadiləsi və kommunikasi-yanın həyata keçirilməsi | Mütəmadi | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | İsmət Mehrəliyeva, Elmir Ağasoy |
| | | | | 4. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.06.2024 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Elmir Ağasoy |
| 4. | **4.2.2 Vençur kapitalı üzrə sövdələşmələr-investorlar** | m/y | İnvestisiya qoyulmuş vençur kapitalı sövdələşmələrinin sayı (son üç ilin orta göstəricisi) | 1. Vençur kapitalı üzrə qanunvericiliyin formalaşdırılması məqsədilə müvafiq normativ hüquqi akt layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi işlərinin yekunlaşdırılmsı | 01.08.2024 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi | Camal Ağayev, Ağahüseyn Əhmədov |
| | **4.2.3 Vençur kapitalı üzrə sövdələşmələr-alıcılar** | m/y | Qəbul edilən vençur kapitalı sövdələşmələrinin sayı (son üç ilin orta göstəricisi) | 2. İkinci vençur kapitalı şirkətinin yaradılması ilə bağlı zəruri tədbirlərin görülməsi | | | |
| | **4.2.4 Alınan vençur kapitalı** | m/y | Alınan vençur kapitalının ÜDM-də payı (%-lə, son üç ilin orta göstəricisi) | 3. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | | |
| 5. | **5.2.1 Universitet-sənaye tədqiqat əməkdaşlığı** | 25-ci yer, 69,2 bal | Bu göstərici sənaye müəssisələri və universitetlərin “Tədqiqat və İnkişaf”la bağlı əməkdaşlığını qiymətləndirir. | 1. Sənaye müəssisələri ilə birgə təhsil proqramlarının (kurikulumların) hazırlanması | 01.08.2024 | Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi | Turxan Süleyman, Arzu Hüseynova |
| | | | | 2. Universitet-sənaye tədqiqat əməkdaşlığının aparılması | İl ərzində | İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi | Arzu Hüseynova, Turxan Süleyman |
| | | | | 3. Universitet-sənaye və elmi-tədqiqat institutları əməkdaşlığının genişləndirilməsi istiqamətində stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi | 01.11.2024 | | |
| | | | | 4. Universitetlərdə yeni texnoloji laboratoriyalarda istehsal xidmətinin təşkili və tələbələrin bu xidmətə cəlb edilməsi üçün zəruri tədbirlərin görülməsi | | Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi | Turxan Süleyman, Arzu Hüseynova |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 5. Universitetlərdə innovasiya ekosisteminin qurulması üzrə dəstək tədbirlərinin həyata keçirilməsi | 01.09.2024 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi | Camal Ağayev, Arzu Hüseynova, Turxan Süleyman, Aynur Babayeva |
| | | | | 6. Universitetlərdə startapların dəstəklənməsi üzrə mentorların hazırlanması | 01.11.2024 | | |
| | | | | 7. Universitet tələbələrinin İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində innovativ layihələr üzrə tədqiqat və təcrübələrə cəlb olunması | 01.10.2024 | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi | İsmət Mehrəliyeva, Arzu Hüseynova, Turxan Süleyman |
| | | | | 8. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.06.2024 | İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi | Arzu Hüseynova, Turxan Süleyman |
| 6. | **5.2.3 Xaricdən maliyyələşdiri-lən elmi-tədqiqatlar** | 96-cı yer, 0 bal | Bu indikator xaricdən maliyyələşdirilən elmi-tədqiqat və inkişaf işlərinə ümumi xərclərin ÜDM-də payını əks etdirir (milyardlarla, milli valyuta). | 1. Beynəlxalq elm mərkəzləri və xarici tədqiqatçılarla birgə elmi layihələrin həyata keçirilməsi | İl ərzində (müntəzəm) | Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | Turxan Süleyman, Esmira Əlirzayeva |
| | | | | 2. Tədqiqatçıların beynəlxalq və Avropa tədqiqat proqramlarında iştirakı üzrə fəaliyyətinin genişləndirilməsi və təşkilati məsələlərin həlli | | | |
| | | | | 3. İndikator üzrə məlumatların aidiyyəti beynəlxalq təşkilatlara çatdırılması və həmin təşkilatların informasiya ehtiyatlarında yenilənmiş məlumatların yerləşdirilməsinin nəzarətdə saxlanılması | 01.07.2024 | Dövlət Statistika Komitəsi, Elm və Təhsil Nazirliyi | Gülbala Quliyev, Turxan Süleyman |
| 7. | **5.2.4 Birgə müəssisə, strateji ittifaq sövdələşmələri** | 115-ci yer, 0 bal | Birgə müəssisə/strateji ittifaq sövdələşmələrinin sayını göstərir (son 3 ilin göstəriciləri). | 1. Dövlət müəssisələrinə birgə müəssisə/strateji ittifaq sövdələşmələrinin sayı barədə sorğuların ünvanlanması və məlumatların (son 3 ilin göstəricilərinin) toplanması | Hər rüb | İqtisadiyyat Nazirliyi, Azərbaycan İnvestisiya Holdinqi | Arzu Hüseynova |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 2. İnnovasiya və vençur fəaliyyətinin tənzimlənməsi üzrə qanunvericilik bazasının formalaşdırılması, müvafiq layihələrin müzakirəsi və aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2024 | İqtisadiyyat Nazirliyi, Azərbaycan İnvestisiya Holdinqi | Arzu Hüseynova |
| | | | | 3. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi. | 01.07.2024 | İqtisadiyyat Nazirliyi | |
| 8. | **5.3.1 Əqli mülkiyyət ödənişləri**<br><br>**6.3.1 Əqli mülkiyyətdən daxilolmalar** | m/y<br><br>m/y | Bu göstərici əqli mülkiyyətdən istifadəyə görə son 3 ildə edilən ödənişlərə əsasən müəyyən edilir (ümumi ticarətin %-i kimi).<br><br>Bu göstərici əqli mülkiyyətdən daxilolmalar üzrə son 3 ilin və ya əldə edilməsi mümkün olan göstəricilərin ortalamasına əsasən hesablanır. | Rüblər üzrə vergi bəyannamələrində əks olunmuş royalti məbləğləri barədə məlumatların hazırlanaraq Mərkəzi Banka təqdim olunması və bu məlumatların Mərkəzi Bankın tərtib etdiyi tədiyə balansının “Royalti və lisenziya xidmətləri” maddəsində əks olunması, habelə həmin məlumatların beynəlxalq təşkilatlara təqdim olunması | Mütəmadi (hər rübdən sonrakı ayın 25-dən sonra) | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Mərkəzi Bank | Oqtay Yaqubov, Əsədəli İbrahimzadə |
| 9. | **5.3.2 Yüksək texnologiyalı məhsul idxalı** | 117-ci yer, 4,9 bal | Bu göstərici yüksək texnologiyalı məhsullarını idxalının ümumi ticarətdə olan payı (faiz nisbəti) əsasında müəyyən olunur. | Aidiyyəti qurumların rəsmi internet səhifələrində yüksək texnologiyalı malların idxalı haqqında açıqlana bilən statistik məlumatın yerləşdirilməsi | Mütəmadi | Dövlət Gömrük Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi | Fuad Aslanov |
| 10. | **5.3.3 İKT xidmətlərinin idxalı** | 114-cü yer, 0,4 bal | Bu göstərici telekommunikasiya, kompüter və informasiya xidmətlərinin idxalının ümumi ticarətdə olan payı (faiz nisbəti) əsasında müəyyən edilir. | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18.02.2023-cü il tarixli 55 nömrəli Qərarı ilə təsdiq edilmiş siyahı üzrə idxalı gömrük rüsumlarından azad edilən hesablayıcı maşınların, giriş-çıxış və yaddaş qurğularının, eləcə də monitorların və elektron inteqral sxemlərin idxalının təşviq edilməsi | İl ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Fərid Hüseynov |
| 11. | **6.1.4 Elmi-texniki məqalələr** | 112-ci yer, 4,1 bal | Elmi və texniki jurnal məqalələrinin sayı əsasında müəyyən edilir. | 1. Yerli elmi jurnalların beynəlxalq elmmetrik bazalarda (“Scopus”, “Web of Science”) indekslənməsinə dəstəyin göstərilməsi | Mütəmadi | Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | Ülkər Səttarova, Sərxan Xavəri |
| | | | | 2. Beynəlxalq layihələr çərçivəsində həmmüəllif məqalələrinə diqqətin artırılması | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 3. Tədqiqatçıların yüksək impakt faktorlu jurnallarda məqalə dərc etdirmələri üçün təşviqedici tədbirlərin həyata keçirilməsi | Mütəmadi | Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | Ülkər Səttarova, Sərxan Xavəri |
| | | | | 4. İmpakt faktorlu elmi jurnallarda dərc etdirilmiş elmi təsir dairəsi yüksək qiymətləndirilmiş məqalələrin müəlliflərinin müəyyən edilərək mükafatlandırılması | | | |
| | | | | 5. İmpakt faktorlu jurnalların standartlarına uyğun məqalələrin hazırlanması üçün təlimlərin təşkili | | | |
| | | | | 6. Beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan elmi nəşrlərdə çap olunan məqalələrin sayının artırılması | | | |
| | | | | 7. Nüfuzlu xarici alimlər və diaspor nümayəndələri ilə əməkdaşlığın genişləndirilməsi və birgə nəşrlərin həyata keçirilməsi | | | |
| | | | | 8. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | | |
| 12. | **6.2.1 Əmək məhsuldarlığının artımı** | 62-ci yer, 1 bal | Bu göstərici məşğul əhalinin hər nəfərinə düşən real ÜDM-in artım sürətini göstərir (5 illik orta faiz göstəricisi). | 1. "Əmək məhsuldarlığının qiymətləndirilməsinə dair metodoloji tövsiyələr" sənədi əsasında müvafiq qiymətləndirmələrin aparılması | 01.11.2024 | Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Gülbala Quliyev, Arzu Hüseynova |
| | | | | 2. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi | |
| 13. | **6.2.2 Bir milyard dollardan artıq dəyəri olan startapların mövcudluğu** | 48-ci yer, 0 bal | Bu göstərici bir milyard dollardan artıq dəyəri olan startapların ümumiləşdirilmiş dəyərinin ÜDM-də payını əks etdirir. | 1. Azərbaycanda fəaliyyət göstərən startaplar üçün inkubasiya və akselerasiya proqramlarının təşkil edilməsi | Mütəmadi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi | Camal Ağayev |
| | | | | 2. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 14. | **6.2.3 Proqram təminatı xərclərinin ÜDM-də payı** | 102-ci yer, 0,1 bal | Alınmış, yaxud icarəyə götürülmüş ümumi əməliyyat sistemlərinin, verilənlər bazası sistemlərinin, proqramlaşdırma alətlərinin, xidməti proqramların və tətbiqetmələrin ümumi dəyərini ifadə edir. | 1. Startapların kompüter proqram təminatlarını öz iş proseslərinə inteqrasiya etməsi məqsədilə proqramlaşdırma üçün kodlaşdırma savadı tələb etməyən proqram təminatı və platformaların, eyni zamanda peşəkar proqramlaşdırma alətlərinin istifadəsi üsulları, məlumatların təhlükəsiz formada saxlanılması üçün müxtəlif bulud xidmətləri, məlumat bazalarının yaradılması və məlumat mübadiləsinin həyata keçirilməsi üçün proqram təminatlarının istifadə olunmasının üstünlükləri, təhlükəsizliyin təmin olunması məqsədilə lisenziyalı əməliyyat sistemlərindən istifadə prosesi və işləmə prinsiplərini əhatə edən təlimlərin təşkili üzrə dəstəyin göstərilməsi | 01.05.2024 (sonradan mütəmadi qaydada) | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Camal Ağayev |
| | | | | 2. Korporativ təşkilatlar daxilində innovativ səlahiyyətlərin artırılması, çevik transformasiyaya töhfə verilməsi, əməliyyat fəaliyyəti üçün müasir proqram təminatından istifadə üzrə təlimlərin təşkili | | | |
| | | | | 3. Regionlarda startap məhsullarının sınaqdan keçirilməsi üçün müasir proqram təminatı ilə təchiz edilmiş yeni elmi-tədqiqat laboratoriyalarının açılması | İl ərzində | | |
| | | | | 4. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.06.2024 | | |
| 15. | **6.2.4 Yüksək texnologiyalı məhsul istehsalı** | 85-ci yer, 12,3 bal | Bu göstərici yüksək texnologiyalı və orta yüksək texnologiyalı məhsul istehsalının ümumi istehsalda olan payı (faiz nisbəti) əsasında müəyyən edilir. | 1. Mövcud innovasiya layihələri çərçivəsində və İKT sahəsində həyata keçiriləcək yeni layihələr vasitəsilə məhsul artımının təşviq edilməsi | 01.07.2024 (sonradan mütəmadi qaydada) | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi | |
| | | | | 2. Bütün istifadəçi seqmentləri üzrə rəqəmsal elektron imza həllinin yaradılması | 01.12.2024 | | Tamerlan Hacıyev |
| 16. | **6.3.2 İstehsal və ixracın mürəkkəbliyi** | 114-cü yer, 26,5 bal | Bu indikator ölkələrin ixrac səbətinin müxtəlifliyini və mürəkkəbliyini əks etdirir. | 1. Azərbaycanda yeni diversifikasiya üçün yüksək potensiala malik sektorların müəyyən edilməsi | 01.10.2024 | İqtisadiyyat Nazirliyi | Arzu Hüseynova |
| | | | | 2. Mürəkkəblik indeksi yüksək ola biləcək məhsulların ixracının təşviqi | Mütəmadi | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 3. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | İqtisadiyyat Nazirliyi | Arzu Hüseynova |
| 17. | **6.3.3 Yüksək texnologiyalı məhsul ixracı** | 118-ci yer, 0,1 bal | Bu göstərici yüksək texnologiyalı məhsulların ixracının ümumi ticarətdə payını (faiz nisbətini) əks etdirir. | 1. Azərbaycanlı təsisçilərin qurduğu innovativ bizneslər/layihələr ilə innovativ və yüksək texnoloji məhsulların istehsalının artırılması və göstərilən xidmətlərin genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi | 01.11.2024 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi | Camal Ağayev |
| | | | | 2. Yüksək texnologiya parklarının rezidentləri tərəfindən istehsal edilən məhsulların ixrac həcminin artırılması istiqamətində tədbirlərin görülməsi | | | |
| | | | | 3. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.09.2024 | | |
| 18. | **6.3.4 İKT xidmətlərinin ixracı** | 104-cü yer, 0,5 bal | Bu göstərici telekommunikasiya, kompüter və informasiya xidmətlərinin ixracının ümumi ticarətdə olan payı (faiz nisbəti) əsasında müəyyən edilir. | İKT xidmətlərinin ixracının artırılması istiqamətində müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin genişləndirilməsi, yeni texnologiyaların işlənməsi üzrə müasir komplekslərin qurulması, investisiya mühitinin cəlbediciliyinin artırılması, ölkənin ixrac qabiliyyətinin genişləndirilməsi, innovativ məşğulluq ənənəsinin yaradılması məqsədilə mövcud qanunvericiliyin təkmilləşdirilməsinə dair layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.12.2024 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank | |
| 19. | **6.3.5 ISO 9001 keyfiyyət sertifikatları** | 91-ci yer, 1,7 bal | Bu göstərici əldə olunan “ISO 9001 Keyfiyyəti İdarəetmə Sistemləri” sertifikatlarının sayını əks etdirir | 1. Azərbaycan Standartlaşdırma İnstitutunun müvafiq sahədə fəaliyyətinin genişləndirilməsi | 01.10.2024 | İqtisadiyyat Nazirliyi | Arzu Hüseynova, Eldəniz Zeynalov |
| | | | | 2. ISO 9001 standartının tətbiqinin genişləndirilməsi istiqamətində maarifləndirmə işlərinin aparılması | Mütəmadi | | |
| | | | | 3. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 20. | **7.1.1 Qeyri-maddi aktivlərin intensivliyi**<br><br>**7.1.3 Qlobal marka dəyəri** | m/y<br><br>m/y | Bu göstərici qeyri-maddi aktivlərin dəyərinin müəssisələrin ümumi dəyərinə faiz nisbəti əsasında müəyyən edilir (ümumi dəyəri yüksək olan 15 müəssisənin ortalaması).<br><br>Bu göstərici ən yaxşı 5000 brendin qlobal brend dəyərinin müəyyənləşdirilməsinə əsaslanır (ÜDM-in faizi kimi). | Qeyd olunan indikatorlar üzrə zəruri məlumatların əldə edilməsi və həmin məlumatların müvafiq beynəlxalq bazalara daxil edilməsi istiqamətində işlərin davam etdirilməsi | 01.10.2024 | İqtisadiyyat Nazirliyi | Arzu Hüseynova |
| 21. | **7.2.1 Mədəniyyət və yaradıcılıq xidmətlərinin ixracı** | 83-cü yer, 0,1 bal | Bu göstərici mədəniyyət və yaradıcılıq xidmətlərinin ixracının ümumi ticarətdə olan payı (faiz nisbəti) əsasında müəyyən edilir. | 1. Mədəniyyət və Yaradıcı Sənayelərin (MYS-lərin) (o cümlədən ixrac olunan mədəniyyət və yaradıcılıq xidmətlərinin) təsnifatının aparılması | 01.11.2024 | Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Dövlət Statistika Komitəsi, Mərkəzi Bank | Rəşad Əzizov |
| | | | | 2. Mədəniyyət və yaradıcılıq xidmətlərinin regional və beynəlxalq müstəviyə çıxarılması, onların ixracının genişləndirilməsi məqsədilə bu sahədə klasterlərin inkişaf etdirilməsi, elektron ticarət platformalarında ticarətin genişləndirilməsi üzrə tədbirlərin görülməsi, bu sahənin xarici ticarətdə payının müəyyən edilməsi üçün statistik təhlillərin aparılması, həmçinin yaradıcı sənayedə əqli mülkiyyətin rolu, bu sahənin idarə edilməsi üzrə nəşrlərin, metodiki vəsaitlərin hazırlanması və yayılması | İl ərzində | Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi | |
| | | | | 3. Ölkə ərazisində xarici filmlərin istehsalı üçün xüsusi rejimin formalaşdırılması məqsədilə müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsinə dair layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2024 | | |
| | | | | 4. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Dövlət Statistika Komitəsi, Mərkəzi Bank | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 22. | **7.2.2 Milli bədii filmlər** | 60-cı yer, 1,1 bal | Bu göstərici ölkədə istehsal olunmuş milli bədii filmlərin sayını əks etdirir və 15-69 yaş arasında olan hər 1 milyon nəfər əhaliyə düşən filmlərin miqdarına əsasən müəyyən edilir. | 1. Ölkədə milli bədii filmlərin istehsalının dəstəklənməsi istiqamətində tədbirlərin görülməsi | İl ərzində | Mədəniyyət Nazirliyi | Rəşad Əzizov |
| | | | | 2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06.07.2006-cı il tarixli 165 nömrəli Qərarı ilə təsdiq edilmiş “Filmlərin yayımı və nümayişi Qaydaları”nın təkmilləşdirilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2024 | | |
| | | | | 3. Azərbaycan Respublikasında qeydiyyatdan keçən və ölkə ərazisində film istehsalı, dublyajı və ya subtitrləmə ilə məşğul olan, mikro sahibkarlıq subyekti olmayan kinematoqrafiya müəssisələri üçün vergi güzəştlərinin tətbiq olunması ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.08.2024 | Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi | |
| | | | | 4. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi | |
| 23. | **7.2.3 Əyləncə və media bazarı** | m/y | Bu göstərici qlobal əyləncə və media bazarını əks etdirir və 15-69 yaş aralığında olan hər 1000 nəfər əhali üzrə hesablanır. | 1. İndikator üzrə ölkəyə dair məlumatın hazırlanmasının təmin edilməsi | | Mədəniyyət Nazirliyi (özəl sektor cəlb edilməklə) | |
| | | | | 2. Oyun texnologiyaları tərtibatçıları və animasiya şirkətlərinin hüquqi statusunun İT şirkətlərlə eyniləşdirilməsinin məqsədəuyğunluğunun qiymətləndirilməsi və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | |
| | | | | 3. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | | Mədəniyyət Nazirliyi, Dövlət Statistika Komitəsi, Əqli Mülkiyyət Agentliyi | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 24. | **7.2.4 Kreativ məhsulların ixracı** | 121-ci yer, 0 bal | Bu göstərici kreativ məhsulların ixracının ümumi ticarətdə olan payı (faiz nisbəti) əsasında müəyyən edilir | 1. İxrac olunan kreativ məhsulların təsnifatının aparılması | 01.07.2024 | Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi | Rəşad Əzizov |
| | | | | 2. Yaradıcı sənaye məhsullarının regional və beynəlxalq müstəviyə çıxarılması, onların ixracının genişləndirilməsi üçün bu sahədə klasterlərin inkişaf etdirilməsi, elektron ticarət platformalarında ticarətin genişləndirilməsi üçün tədbirlərin görülməsi, bu sahənin xarici ticarətdə payının müəyyən edilməsi üçün statistik təhlillərin aparılması, həmçinin yaradıcı sənayedə əqli mülkiyyətin rolu, bu sahənin idarə edilməsi üzrə nəşrlərin, metodiki vəsaitlərin hazırlanması və yayılması | İl ərzində | Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi, Əqli Mülkiyyət Agentliyi | |
| | | | | 3. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi | |
| 25. | **7.3.1 Üst səviyyəli ümumi domenlər** | 98-ci yer, 1 bal | Bu göstərici yüksək səviyyəli ümumi domenlərin (TLD-Top Level Domain) sayını əks etdirir və 15-69 yaş aralığında olan hər 1000 nəfər əhaliyə düşən ümumi domenlərin sayına əsasən müəyyən edilir. | Startap və KOB dəstək proqramlarında (inkubasiya, akselerasiya və s.) yüksək nəticə göstərə bilmiş və fəaliyyətini ölkə xaricinə genişləndirməyi nəzərdə tutan iştirakçılara domenlərin alınmasında dəstək göstərilməsi (domen adının alınması üçün tələb olunan xərcin bir hissəsinin qarşılanması) | İl ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Aynur Babayeva, Camal Ağayev |
| 26. | **7.3.2 Ölkə kodlu üst səviyyəli domenlər** | 76-cı yer, 1,6 bal | Bu göstərici ölkə kodlu yüksək səviyyəli domenlərin (TLD-Top Level Domain) sayını əks etdirir və 15-69 yaş aralığında olan hər 1000 nəfər əhaliyə düşən milli domenlərin sayına əsasən müəyyən edilir. | ".az" ölkə kodlu yüksək səviyyəli domen adlarının alınması üçün müraciət etmiş subyektlərin müraciətlərinə baxılması və müvafiq tədbirlərin görülməsi üçün domen adlarının milli inzibatçısına yönləndirilməsi | Mütəmadi | | Aynur Babayeva |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 27. | **7.3.3 Qəbul olunan GitHub öhdəliyi** | 76-cı yer, 4 bal | Bu göstərici GitHub-dan mənbə kodunun əldə olunmasını ehtiva edir və 15-69 yaş aralığında olan hər 1 milyon nəfər əhali üzrə hesablanır. | 1. Hər 1 milyon əhaliyə düşən GitHub abunəçilərinin sayının artırılması istiqamətində proqram tərtibatı üzrə təlimlərin keçirilməsi və GitHub platformasından istifadəyə dair maarifləndirmə işinin “Technest” təqaüd proqramı çərçivəsində icrası üçün tədbirlərin görülməsi | 01.10.2024 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Fatimə Ələkbərova |
| | | | | 2. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.06.2024 | | |
| 28. | **7.3.4 Mobil proqramların yaradılması** | 97-ci yer, 54,8 bal | Mobil tətbiqlərin beynəlxalq miqyasda yüklənməsi dedikdə 2 il ərzində hər bir ölkədə “Google Play Store” və “iOS App Store”-dan endirilən mobil tətbiqlər nəzərdə tutulur. | 1. Startaplarla əlaqəli mobil tətbiqlərin sayının artırılması və müvafiq startap məhsullarının bazara çıxarılması məqsədilə akselerasiya proqramlarının həyata keçirilməsi | 01.12.2024 | | Camal Ağayev |
| | | | | 2. Korporativ əməkdaşlıq çərçivəsində şirkətlər tərəfindən həyata keçirilən inkubasiya və akselerasiya tədbirlərinə və hakatonlara dövlət dəstəyinin göstərilməsi | | | |
| | | | | 3. Universitetlərdə keçirilən inkubasiya və akselerasiya proqramlarına, həmçinin innovasiya sahəsində təhsil alan tələbələrə dövlət dəstəyinin (mentorlarla əlaqələndirmə, sahibkarlıq proqramları haqqında məlumatlandırma, maliyyə dəstəyi və s.) göstərilməsi | | | |
| | | | | 4. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.06.2024 | | |